# AKADEMİK KİTABXANALARDA MÜASİR TENDENSİYALAR

**Nərminə Abdullayeva**

*UNEC KİM, 3 saylı Kitabxananın müdiri,*
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı*

Kitabxanaçıların rolları təbii olaraq zaman keçdikcə dəyişir və təkmilləşir. Bununla belə, son onillikdə ali təhsildə baş verən transformasiyalar, daim dəyişən tədqiqat, elm və texnologiyadakı sürətli irəliləyişlər akademik kitabxanaçıların peşə məsuliyyətlərinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Dəyişikliklərin (innovasiyaların) idarə olunması; Yeni liderlik üçün yeni bacarıqlar: Dəyişikliyin idarə edilməsi akademik kitabxana rəhbərliyinin bütün təşkilatın işini sistematik şəkildə tənzimləmək üçün ən yaxşı təcrübələrə köklənməsini tələb edir. Əgər kitabxanalarımız müasir dünyada uğur qazanmaq istəyirsə, indiki və gələcək liderlər dəyişikliklərin idarə edilməsi bacarıqlarını inkişaf etdirməli olacaqlar. Bu sahədə bir sıra liderlik kursları, seminarlar və proqramlar var və bu tələb olunan bacarıqlara diqqət yetirmək öz kitabxanalarını gələcəyə tez və inamla aparmaq istəyən liderlər üçün çox faydalı olacaqdır.

Daim İnkişaf edən inteqrasiya olunmuş kitabxana sistemləri: 2019-cu ilin dekabrında Ex Libris Innovative İnterfaces məhsullarını almaq üçün sövdələşmə elan etdi. Innovative-in müştəriləri arasında bunun onlara necə təsir edə biləcəyi ilə bağlı dərhal suallar yarandı. Innovative Sierra və Polaris də daxil olmaqla bir sıra inteqrasiya olunmuş kitabxana sistemi (ILS) məhsullarını təqdim edir, lakin onun akademik kitabxanalar üçün yararlılıq səviyyəsi kütləvi kitabxana sistemlərində yararlılıq səviyyəsilə ilə müqayisədə nisbətən aşağıdır. Bunun əksinə olaraq, Ex Libris, ilk növbədə bulud əsaslı kitabxana idarəetmə sistemi (LMS) Alma sayəsində akademik kitabxanalar arasında daha böyük nüfuza malikdir. Ex Libris, çox güman ki, akademik kitabxana biznesində genişmiqyaslı dəyişikliklər etməkdənsə, yaxın gələcəkdə kütləvi kitabxanaları bulud əsaslı sistemlərə keçirməklə bu sahədəki biznesini genişləndirməyə səy göstərəcəkdir.

Bu kimi böyük birləşmələr müasir kitabxana sistemlərini özündə birləşdirən bütün müxtəlif sistemlər, platformalar və cihazlar arasında

qarşılıqlı fəaliyyətlə bağlı narahatlıqları yenidən alovlandırır. FOLIO (The Future Of Libraries Is Open) bu narahatlıqları aradan qaldırmağa yönəlmiş məhsullardan biridir, 2020-ci ildə ilk dəfə istifadəyə verilmişdir. FOLIO müxtəlif modullarla çeviklik ideyası ətrafında qurulan açıq mənbəli kitabxana idarəetmə sistemidir. Bu cür "Yeni nəsil" sistemlər istifadəçi yönümlü olmaqla, kitabxananın kolleksiyalarından istifadəni asanlaşdırır və onlara daxil olmağa imkan veriir. Digər institusional platformalarla inteqrasiyanı və müasir biznes tədqiqat imkanlarını təmin edir.

Öyrənmənin təhlili: ACRL-nin "Akademik Kitabxanalarda 2018-ci ilin Ən Yaxşı Trendləri" hesabatı öyrənmənin təhlili metodunun istifadəsini inkişaf etməkdə olan bir tendensiya kimi müəyyənləşdirdi. Öyrənmənin təhlili metodunun tərəfdarları tələbə təhsil (öyrənmə) bazalarını, o cümlədən kitabxanadan istifadə məlumatlarını toplamaq və təhlil etməklə institutların tələbələrin öyrənmə bacarıqlarını daha yaxşı anlayacağını, problemlər ortaya çıxdıqda müdaxilə etməyin və hətta potensial problemləri meydana gəlməzdən əvvəl proqnozlaşdırmağın mümkünlüyünü iddia edirlər. Kitabxanalar artıq öz dəyərlərini maraqlı tərəflərə çatdırmaq üçün öyrənmə analitikasından necə istifadə edə biləcəkləri ilə daha çox maraqlanırlar.

Keçən illər ərzində nəşriyyatlar və kitabxanalar (və ya kitabxana konsorsiumları) arasında bir çox yeni transformasiya sazişləri elan edilmişdir. Azərbaycanda da böyük elmi müəssisələr və universitetlərdə Elsevier, Wiley kimi iri nəşriyyatlar, Scopus, Web of Science bibliometrik bazalarları ilə müqavilələr bağlanaraq əməkdaşlıqlar qurulub davam etdirilir.Bu yeni akademik mühit, alternativ nəşr modellərinin artması, rəqəmsal və lisenziyalı resursların genişçeşidliliyi, rəqəmsal məzmunun yaradılması və sosial medianın hər yerdə mövcudluğu ilə yanaşı, kitabxanaçıları öz rollarını yenidən nəzərdən keçirməyə çağırır. Dövlət qurumları tərəfindən maliyyələşdirilən tədqiqatlar dair çap olunan nəşrlərin sərbəst şəkildə əldə edilməsi imkanları və tədqiqat nəticələrinin əlçatan olması və ya verilənlər bazasında saxlanması kitabxanaçılar üçün yeni imkanlar yaratmış və onların tədqiqat bacarıqlarını inkişaf etdirməyə təşviq etmişdir.

Kitabxanaçılar tədqiqat, tədris və təlim sahəsində fakültələrlə əməkdaşlıq edərək və istifadəçi (oxucu) təcrübəsini təkmilləşdirməyə çalışaraq bu yeni mühitə uyğunlaşırlar. İstinad işi və kolleksiyanın idarə edilməsi kimi ənənəvi funksiyalar sürətlə kitabxanaçıların əsas vəzifələri statusunu itirir, tədqiqat dəstəyi, məlumatların idarə edilməsi, bibliometrik, rəqəmsal təhlillər, elmi ünsiyyət və istifadəçilərlə iş (oxucu) ilə





bağlı yeni funksiyalar getdikcə daha çox akademik kitabxanaçının məsuliyyətlərinin bir hissəsinə çevrilir. Bir çox qurumların kitabxanaçıları yeni funksiyaların bəzilərini mənimsəmiş və öz rollarını yenidən kəşf etmək prosesində olsalar da, digərləri bunu etmənin ilkin mərhələsindədir. Bu istiqamətdə kitabxanaçı kadrların hazırlanması ilə məşğul olan ali və orta ixtisas təhsili müəssisələri öz tədris planlarında dünyada mövcud olan bu kimi yeni tendensiyaları nəzərə almalı, müasir dövrün tələblərinə uyğun fənlərin tədrisinə çalışmalıdırlar.